# TƏKLİFLƏR ÜÇÜN MÜRACİƏT

## Regional və Yerli Səviyyədə Avropada Nailiyyətlərə görə Kaiser Maximilian Mükafatı 2019 üçün

1997-ci ildə Tirol vilayəti və İnsbruk şəhəri uzun müddət İnsbruk şəhərinin meri və Tirol vilayət parlamentinin sədri olmuş doktor Alois Luggerin (†) anadan olmasının 85-ci ildönümü münasibətilə Avropada yerli və regional siyasətdə böyük nailiyyətlərə görə Kaiser Maximillian Mükafatını təsis etmişdir. Mükafat doktor Luggerin Avropaya xidmətlərinə həsr edilmişdir.

Tirol vilayəti və İnsbruk şəhərinin rəhbərliyi Kaiser Maximilian Anım İli 2019 üçün hazırlıqların bir hissəsi olaraq, Kaiser Maximilian Mükafatında da yenilik etmişdir.

Mükafat Avropada regional və/ya bələdiyyə səviyyəsində əlavə dəyərlər yaradan şəxs, qurum və ya təşkilatlar tərəfindən həyata keçirilən qeyri-adi layihələrə görə verilir. Layihə iştirakçıları etibarlı və layihəni icra etmək və tamamlamaq səlahiyyətinə malik olmalıdırlar.

Avropada harmoniya, Avropaya inteqrasiya, Avropada sülhün bərqərar olması və birliyə xüsusi töhfə verən layihələrə üstünlük veriləcəkdir. Yerli və regional səviyyələr arasında nisbət gözlənilməlidir. Təqdim edilmiş layihələr digər icma və bölgələrə də tətbiq edilə biləcək ən yaxşı təcrübələri formalaşdırmaq potensialına malik olmalıdır.

Yüksək ictimai profil vətəndaşlar arasında Avropa ideyasını gücləndirməlidir. Layihə mənfəət və ya digər aktivlərin əldə edilməsinə yönəlməməli və qanuni müddəalar və ya ümumavropa hüquq prinsiplərinə zidd olmamalıdır.

Təqdim olunan layihələr: innovativliyə diqqət yetirməli; yeni yanaşma və ya təşkilati metodları həyata keçirməli; və layihə məqsədlərinin təsir və nəticələrinin yaxud da gözlənilən təsirlərinin qiymətləndirilməsindən ibarət olmalıdır. Burada həlledici məqam Avropaya inteqrasiyanın müxtəlif aspektləridir. Mühüm meyarlara daxildir: layihənin effektivliyi; davamlılıq və kreativlik; digər hədəf qruplarını Avropaya müstəqil şəkildə cəlb etməyə diqqət yetirilməsi.

Kaiser Maximilian Mükafatı iki ildən-bir təqdim edilir. Mükafat sertifikat, medal (1509-cu il istehsalı olan İmperator 1-ci Maksimilian medalı) və 10.000 avro məbləğində pul mükafatından ibarətdir. Nağd pul mükafatı qalib layihə üçün ayrılır.

2019-cu il üçün Kaiser Maximilian Mükafatının təqdimat mərasimi mayın 8-də keçiriləcək. Mükafat regional və yerli səviyyədə Avropada nailiyyətlərinə görə şəxs, qurum və ya təşkilatlara təqdim edilir.

Layihələr yalnız vebsaytın inteqrasiya edilmiş ərizə platforması vasitəsilə təqdim edilə bilər: www.kaisermaximilianpreis.at. Layihələr alman, fransız və ya ingilis dilində təqdim edilməlidir.

| İnsbruk şəhəri adından | Tirol vilayəti adından |
| --- | --- |
| Christine Oppitz-Plörer<br>Mer | Günther Platter<br>Qubernator |